BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 *Humanitar elmlər seriyası* 2015

**UOT 63.3(2.Az)**

# DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASINDAN SONRA GƏNCƏ ŞƏHƏRİNİN MƏDƏNİ HƏYATI (1991-2011-ci illər)

**N.A.RƏSULOVA**
***Gəncə Dövlət Universiteti***
***nararasulova@bk.ru***

*Gəncə şəhəri tarixən Azərbaycanın mədəniyyət mərkəzlərindən biri olmuşdur. Bəşəriyyətin dahi şəxsiyyətlərindən, Nizami Gəncəvi, Məhsəti xanım bu şəhərdə dünyaya göz açmış, yazıb-yaratmışlar. Bu qədim şəhər Azərbaycanın mədəniyyət mərkəzlərindən biri kimi tarixi ənənələrini Dövlət müstəqilliyinin bərpasından sonra da davam etdirmişdir. Doğrudur, 80-ci illərin sonu 90-cı illərin əvvəlləri üçün bir çox neqativ səbəblərdən şəhər həyatının bütün sahələrində olduğu kimi mədəni həyatına da ciddi zərbələr dəymişdi. Yalnız ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra şəhərin mədəni həyatında ciddi irəliləyişlər oldu. Ulu öndərin təhsilimizin, elmimizin, mədəniyyətimizin inkişafı sahəsində gördüyü işləri ölkə başçısı İlham Əliyev uğurla davam etdirir.*

**Açar sözlər:** Azərbaycan, dövlət müstəqilliyi, Gəncə şəhəri, mədəniyyət, təhsil, islahat

Gəncə şəhəri tarixən Azərbaycanın mədəniyyət mərkəzlərindən biri olmuşdur. Bəşəriyyətin dahi şəxsiyyətlərindən Nizami Gəncəvi, Məshəti xanım bu şəhərdə dünyaya göz açmış, yazıb-yaratmışdılar. Mirzə Şəfi Vazeh, Mirzə Cəfər Topçubaşov və başqa şair və alimlər Gəncənin yetişdirmələridir. Gəncə Azərbaycanın mədəniyyət mərkəzlərindən biri kimi bu tarixi ənənəni dövlət müstəqilliyyinin bərpasından sonra da davam etdirmişdir. Təssüflə qeyd etməliyik ki, dövlət müstəqilliyyinin bərpasından sonra Gəncə şəhərinin tarixi ayrıca tədqiqat obyekti olmadığından bu vacib sahənin də öyrənilməsində bir boşluq var. Təqdim olunan məqalədə Gəncənin mədəni həyatının öyrənilməsinə səy göstərilmişdir.

Hər bir şəhərin mədəni həyatı onun tədris müəssisələrinin vəziyyəti ilə bilavasitə bağlıdır. Azərbaycanın digər şəhərləri kimi Gəncədə də gənc nəsilin təlim-tərbiyəsinə diqqət və qayğı həmişə olmuşdur. Lakin 80-cı illərin sonu, 90-cı illərin əvvəlləri üçün Ermənistanın təcavüzü, respublikada yaranmış hərc-mərclik, müəyyən qüvvələrin hakimiyyət hərisliyi, respublikanın iqtisadi, siyasi və mənəvi həyatındakı ziddiyyətlər nəinki Gəncədə təhsil sisteminə ağır zərbələr vurmuş, ümumilikdə respublikada həyatın bu vacib sahəsində çox

böyük çətinliklər yaratmışdı. Nəzarətsizlik üzündən bir çox məktəb binaları başqa məqsədlər üçün istifadəyə verilmiş, maddi vəziyyətin ağırlığı ucundan minlərlə müəllim maarif sistemini tərk etmiş, ya da peşələrini dəyişmək məcburiyyəti qarşısında qalmışlar. Belə bir vəziyyətdə Müstəqil Azərbaycan öz maarif sistemini yaratmalı idi. Məktəb hakim amirlik ideologiyasından azad olmalı, milli təhsil konsepsiyası hazırlanıb həyata keçirilməli idi. Buna yalnız ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra nail olundu. Heydər Əliyevin sərəncamı ilə 1998-ci il martın 30-da Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaradıldı, Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramı hazırlandı. Azərbaycanda təhsil sisteminin gələcək inkişafı üçün qəbul olunan bu olduqca mükəmməl sənəddə milli təhsil sisteminin strategiyasının konsepsiyası öz əksini tapdı. Sənəddə təhsilin idarə edilməsində yeni prinsiplərin bərqərar olunması, təhsilin beynəlxalq stantartlara uyğunlaşdırılması, dünya təhsil sisteminə inteqrasiyası və əsaslı şəkildə təkmilləşdirilməsi nəzərdə tutulurdu [1, 410].

Prezident Heydər Əliyev 2000-ci il iyunun 23-də “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” fərman verdi. Təlim-tərbiyə proseslərinin keyfiyyətcə yeniləşdirilməsini gücləndirmək üçün mülkiyyət formasından və tabeçiliyindən asılı olmayaraq, bütün təhsil müəssisələrinə tədris-metodik rəhbərlik, ayrı-ayrı dövlət qrumlarına məxsus təhsil müəsissələrinin tabeçiliyi Təhsil Nazirliyinə verildi. Prezident fərmanına əsasən Azərbaycan Pedaqoji Kadrların İxtisasının artırılması və yenidən hazırlanması Baş İnstitutunun bazasında Azərbaycan Müəllimlər İnstitutu və onun regionlarda, o cümlədən Gəncədə filialları yaradıldı. Bununla yanaşı eyni zamanda Təhsil Problemləri İnstitutu, Təsərrüfathesablı Təhsil Texnologiyaları Mərkəzi də təsis edildi [1,411].

Məlumdur ki, gənc nəsilin təlim-tərbiyəsinin bünövrəsi məktəbəqədər uşaq tərbiyə müəssisələrində qoyulur. 80-cı illərin sonu üçün burada 10 000 nəfər uşağı əhatə edən 67 uşaq bağçası fəaliyyət göstərirdi ki, onlarda 700 nəfərdən çox müəllim və tərbiyəçi işləyirdi [2,143]. Belə sayda məktəbəqədər uşaq tərbiyə müəssisələrinin olması Gəncənin sənaye həyatı ilə bilavasitə bağlı idi. Qadınların böyük əksəriyyətinin şəhərin müxtəlif sənaye müəssisələrində işləmələri bu məktəblərə daha çox ehtiyac doğururdu. Gəncə sənayesinin yuxarıda qeyd olunan səbəblərdən tənəzzülü məktəbəqədər uşaq müəssisələrinə də öz mənfi təsirini göstərmişdi. 2000-ci ilin məlumatına görə şəhərdə 53 belə müəssisə vardı ki, onlarda da 4883 uşaq tərbiyə alırdı [3]. 2010-cu ilin məlumatına görə isə şəhərdə məktəbəqədər uşaq tərbiyə müəssisələrinin sayı 42-yə onlarda tərbiyə alan uşaqların sayı isə 4765-ə enmişdi [4].

Gəncədə gənc nəsilin təlim-tərbiyəsində ümumtəhsil müəssisələrinin xüsusi yeri vardı. Təkcə 1960-1980-ci illərdə burada 20-dən çox müasir tipli yeni məktəb binası tikilib istifadəyə verilmişdir. Həmin məktəblərdə 30000-ə qədər şagird təhsil alırdı. 1989-1990-cı illərdə isə şəhərdə məktəblərin sayı 49-a, onlarda təhsil alanların sayı isə 42000-ə catmışdı. 1990-cı ildə şəhərin ümum-

təhsil müəssisələrində 3000 nəfərdən çox müəllim gənc nəsilin təlim-tərbiyəsi ilə məşğul olurdu [2,141-142].

Dövlət müstəqilliyinin bərpasından sonra da məktəb sovet təhsil sisteminin müsbət ənənələrini qoruyub saxlamaqla bərabər onu müasir Avropa texnologiyası ilə zənginləşdirməyə başladı. Bir çox xarici ölkələrlə əlaqələr yaradıldı, onların təhsil sistemi öyrənildi və Azərbaycan təhsil sisteminə tətbiq edildi. Orta məktəblər üçün orjinal dərsliklər, yeni dərs vəsaitləri, fənn proqramları hazırlandı. Alim və pedaqoqların səyi sayəsində qısa müddətdə ümumtəhsil məktəbləri üçün yeni "Azərbaycan tarixi", "Ədəbiyyat", "Azərbaycan dili", "Coğrafiya" və digər bir çox dərsliklər çap olundu. Təbiət elmləri üzrə bir sıra yeni dərsliklər işıq üzü gördü. Dərsliklərin və dərs vəsaitlərinin formasının müasir Avropa standartlarına uyğunlaşdırılmasına diqqət yetirildi [1, 411-412]. Araşdırmalar göstərir ki, 2010-2011-ci illərin məlumatına görə şəhərdə 49 məktəb vardı ki, onlarda 47 806 şagird təhsil alırdı. Həmin məktəblərdə gənc nəslin təlim- tərbiyəsi ilə 4504 müəllim məşğul olurdu [5].

"Maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik" şüarı dövrün əsas deyiminə çevrildi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ümumtəhsil məktəblərinin maddi texniki bazasını möhkəmləndirmək məqsədilə 2002-ci il oktyabrın 4-də "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" fərman verdi [1, 413]. Bundan sonra məktəb tikintisi, təmiri, məktəblərin müasir tədris avadanlıqları ilə təchizi üçün konkret tədbirlər həyata keçirildi. Bütün bu işlərdən Gəncə də kənarda deyildi. Belə ki, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən işlər nəticəsində təkcə 2010-2011-ci illərdə Gəncə məktəbləri üçün 118959 manatlıq inventar, texniki avadanlıqlar alınmışdı [6].

Gəncədə gənc nəslin təhsilə marağının artmasının nəticəsi idi ki, 2010-2011-ci tədris ilində şəhərin orta təhsil müəssisələrində təhsilini başa vurmuş şagirdlərdən 2000-ə yaxını ali məktəblərə qəbul imtahanlarında iştirak etmiş, onlardan 787 nəfəri və ya 39,1 faizi ölkənin müxtəlif ali məktəblərinə qəbul olunmuşdu [7].

Dövlət müstəqilliyinin bərpasından sonra Təhsil Nazirliyi sistemində Gəncədə 3 peşə məktəbi və 3 peşə liseyi fəaliyyət göstərmişdir. Hər iki kateqoriyadan olan təhsil müəssisəsində 1150 nəfər şagird təhsil almışdı. Şəhərdə eyni zamanda orta peşə təhsili növünə yiyələnmək üçün gənclərə kifayət qədər imkan yaradan çoxşaxəli təhsil müəssisələri şəbəkəsi də vardı. 2010-2011-ci dərs ilinin əvvəlinə Gəncədə 3971 tələbənin orta peşə təhsili aldığı 4 orta ixtisas məktəbi olmuşdu [7].

Əsası hələ sovet dönəmində qoyulmuş Gəncə Politexnik, A.Dadaşov adına İnşaat, Kənd Təsərrüfatı, Yüngül Sənaye Texnikumları, Tibb, Məshəti Gəncəvi adına Pedaqoji, Qənbər Hüseynli adına musiqi məktəbləri təkcə bu şəhər üçün deyil, eyni zamanda respublika miqyasında da ixtiaslı kadrlar hazırlayırdı. Dövlət müstəqilliyinin bərpasının 20-ci ilində şəhərdə belə məktəblərin sayı 4-

ə enmişdi. Bu azalma bilavasitə təhsil sistemimizdəki islahatla bağlı idi [3,42].

Gəncə özünün əsası hələ sovetlər dönəmində qoyulmuş ali məktəbləri ilə də haqlı olaraq fəxr edir.1993-cü ildən respublikanın ali məktəblərində çoxpilləli ali təhsil-dördillik bakalavr (incəsənət, mədəniyyət, tibb və idman ixtisasları üzrə məktəblərdən başqa) və ikillik magistraturasına qəbul keçirildi. Qəbul imtahanları Dövlət Tələbə qəbulu Komissiyası tərəfindən yeni qaydada –test üsulu ilə aparıldı [1,413].

Gəncə ali təhsil müəssisələrindən Gəncə Dövlət Universiteti, Gəncə Texnologiya Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti qeyd edilməlidir. Bu ali təhsil müəssisələrində gənc nəslin ümumi mədəni, siyasi səviyyəsinin yüksəldilməsinə diqqət artırıldı. Bu məqsədlə 1997-ci ildən başlayaraq ali və orta ixtisas məktəblərində təşkil olunan "Heydər Əliyev məktəbləri" xüsusi əhəmiyyət kəsb etdi. Bu məktəblərdə gənclərə ölkədə müstəqilliyin, dövlətçiliyin, tərəqqinin təmin olunmasında Heydər Əliyevin siyasət sənətinin incəlikləri, xarakterik cəhətləri öyrədilirdi [1,416].

Gəncənin yuxarıda adı çəkilən ali təhsil müəssisələri haqqında ayrı-ayrılıqda gətirilən fakt və məlumatlar onlar haqqında ümumi təssəvür yaradır. İlkin olaraq şəhərin qocaman ali təhsil müəssisəsi olan Azərbaycan Dövlət Aqrar Universiteti haqqında onu demək olar ki, bu təhsil müəssisəsi 1929-cu ildə yaradılmış və Azərbaycan SSR XKS-nin qərarı ilə 1931-ci ildə Gəncəyə köçürülmüşdü [8]. 1991-ci il 17 iyun tarixində institut Aakademiya statusu almışdır. Daha sonra Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 aprel 2009-cu il qərarı ilə Azərbaycan Dövlət Aqrar Universiteti adlandırılmışdır [9]. Bu gün bu ali təhsil ocağının zəngin maddi-texniki bazası, muzeyi, əsaslı kitabxanası, redaksiya-nəşriyyat şöbəsi, mətbəəsi müasir avadanlıqlarla təchiz edilmiş laboratoriyaları, təmir emalatxanası, tədris-təcrübə tarlası və s. vardır.

Burada aqronomluq, aqrotexnologiya, zoobaytarlıq və əmtəəşünaslıq, informasiya texnologiyaları, aqromühəndislik və energetika, iqtisadiyyat fakültələrində bu ixtisaslar üzrə mütəxəssis hazırlığı aparılır: torpaqşünaslıq, aqrokimya, aqronomluq, qida məhsullarının texnologiyası, meşə və meşə ehtiyatlarının bərpası, yerquruluşu və torpaq kadastrı, memarlıq, ekologiya və təbiətdən istifadə, zootexniklik, baytarlıq, əmtəşünaslıq, aqrormühəndislik, energetika, enerji maşınqayırması, yerüstü nəqliyyat vasitələri və nəqliyyatın istismarı, maşınqayırma və metal emalı, standartlaşdırma və sertifikasiya, ümumi iqtisadiyyat, mühəndis iqtisadiyyatı və idarəetmə, inzibati idarəetmə, informasiya sistemləri, dünya iqtisadiyyatı [10 ].

Statistik göstəricilərdən aydın olur ki, Gəncənin bu ali təhsil müəssisəsində oxuyan tələbələrin sayı ildən-ilə artmışdır. Təkcə 2009-2010-cu tədris ilində burada 2387 tələbə təhsil alırdısa, 2010-2011-ci tədris ilində tələbələrin sayı 3029-a qədər artmışdı. Aqrar Universitetin ABŞ, Fransa, Almaniya, İslandiya, Türkiyə, İran, Niderland, İspaniya və MDB ölkələrinin ali kənd təsərrüfatı məktəbləri ilə tədris və elmi əlaqələri vardır [12].

Gəncədə fəaliyyət göstərən Gəncə Dövlət Universiteti Azərbaycan Xalq

Komissarları Sovetinin 14 aprel 1938-ci il tarixli qərarı ilə Kirovabadda (Gəncədə) N.K. Krupskaya adına ikiillik Müəllimlər İnstitutunun bazasında 1 oktyabr 1943-cü yaradılmışdır. 2000-ci ildə ona ulu öndər Heydər Əliyevin sərəncamı ilə universitet statusu verilmişdir. Universitetdə tədris bakalavr (təhsil müddəti əyani 4 il, qiyabi 5 il) və magistr (təhsil müddəti 2 il) pillələrində aparılır. Hazırda Universitetin yeddi fakültəsində 21 ixtisas üzrə-riyaziyyat, informatika, riyaziyyat-fizika, fizika, peşə təlimi, coğrafiya, iqtisadi biliklər, tarix, Azərbaycan dili və ədəbiyyatı, ingilis dili, fransız dili, rus dili, biologiya, kimya, kimya-biologiya, ibtidai təhsil pedaqogikası və metodikası, pedaqogika və psixologiya, məktəbəqədər təlim pedaqogikası və psixologiyası, musiqi təhsili, rəsmxət və təsviri incəsənət, ilkin hərbi-fiziki təlim ixtisasları üzrə müəllim kadrları hazırlanır. Hal-hazırda burada 4000-ə yaxın tələbə təhsi alır. 37 tədris kafedrasında 20 elmlər doktoru – professor, 70 elmlər namizədi-dosent, 400-ə yaxın baş müəllim çalışır. 1995-ci ildə Gəncə Dövlət Universitetində beynəlxalq əlaqələr şöbəsi yaradılmışdır. Elə bu ildən etibarən GDU Avropa İttifaqının "Tempus" təhsil proqramı ilə əlaqə saxlamaq üçün fəal təşəbbüs göstərmişdir. Avropa Birliyinin maliyyələşdirdiyi Erasmus – Mundus Proqramı əsasında həyata keçirilən "Tələbə, magistr, aspirant, doktorant hazırlığı, professor və müəllimlərin Avropa Universitetlərində elmi-tədqiqat imkanlarının və nəzəri biliklərinin artırılması layihəsi" çərçivəsində beynəlxalq əlaqələr daha da genişləndirilmişdir. Bu layihə konsorsum üzvləri tərəfindən həyata keçirilir və konsorsumda Hollandiya, Fransa, İtaliya, Portuqaliya, Yunanıstan, Bolqarıstan, Litva, Latviya, Azərbaycan, Gürcüstan universitetləri birləşirlər. Azərbaycan tərəfdən konsorsumda Gəncə Dövlət Universiteti, Xəzər Universiteti və Turizm Universitetləri iştirak edir. Bundan başqa GDU Türkiyənin Kars Kafkaz Universiteti, Fransa səfirliyinin Mədəniyyət şöbəsi, Almaniya Respublikası səfirliyi, Almaniyanın "DAAD" təşkilatı, "Tasis" proqramı üzrə "Avropa dilləri öyrədilməsi mərkəzi", İngiltərənin Nottingem Trent Universiteti ilə əməkdaşlıq edir [12]. Gəncə Dövlət Universiteti 11 noyabr 2009-cu ildə təsis edilmiş Qafqaz Universitetlər Birliyinin üzvüdür [11].

Gəncə Dövlət Universiteti üçün mükəmməl maddi texniki baza yaradılmışdır. Universitet son illərdə əsaslı şəkildə yeniləşmiş, burada genişmiqyaslı təmir-bərpa işləri aparılmışdır [14].

Gəncənin ali təhsil ocaqlarından biri də Azərbaycan Texnologiya Universitetidir. Bu ali təhsil müəssisəsi Heydər Əliyevin təşəbbüsü ilə, keçmiş SSRİ Nazirlər Sovetinin 202 saylı 22 fevral 1979-cu il tarixli, ona müvafiq Azərbaycan SSR Nazirlər Sovetinin 206 saylı 10 iyul 1980-ci il tarixli qərarı ilə Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun Kirovabad (indiki Gəncə) filialının bazasında, Krasnodar Politexnik İnstitutunun Bakı filialını, həmçinin S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun "Şərabçılığın texnologiyası" ixtisasını birləşdirməklə yaradılmışdır. Universitetdə hazırda standartlaşdırma və texnoloji maşınlar, qida məhsullarının texnologiyası və turizim, iqtisadiyyat və idarəetmə, istehlak mallarının texnologiyası

və ekspertizası fakültələri, 19 kafedra, aspirantura və magistratura şöbəsi, elmi-tədqiqat bölməsi, hazırlıq kursu, iki elmi-tədqiqat laboratoriyası, ingilis dili resurs mərkəzi, kitabxana, informasiya hesablama mərkəzi, 4 istehsalat-təcrübə obyekti və s. fəaliyyət göstərir. Azərbaycan Texnologiya Universiteti 2007-ci ildə attestasiya olunaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinin komissiyası tərəfindən akkreditasiyadan keçirilmiş və sertifikat almışdır (sertifikat № 006, 06.06.2007-ci il) [13].

2000-ci ilin məlumatına görə şəhərin 3 ali məktəbində 9514 tələbə təhsil alırdı ki, onlardan 4524 nəfəri qızlar idi. 2000-2001-ci tədris ili üçün Gəncə ali məktəblərinə 2052 nəfər qəbul olunmuş və onları 2164 nəfər bitirmişdi. Qeyd olunan tədris ilində Gəncə ali məktəblərinin magisraturasına 103 nəfər qəbul edilmişdi [3,43]. Gəncə ali məktəblərində tədrislə 1288 müəllim məşğul olmuşdur ki,onlardan 55 nəfəri elmlər doktoru, 607 nəfəri elmlər namizədi idi . 2010-2011-ci ilin məlumatlarına diqqət yetirsək şəhərin ali məktəblərində təhsil alanların sayının artımı müşahidə edilir. Belə ki, qeyd olunan tədris ilində şəhərin ali məktəblərində 11250 tələbə təhsil alırdı. Yenə həmən tədris ili üçün Gəncənin ali məktəblərinə 2750 tələbə qəbul olunmuşdu. Universitetləri bitirən tələbələrin ümumi sayı 2045 nəfər idi [4]. 2011-ci ilin məlumatına görə respublikanın digər ali məktəblərinə 787 nəfər tələbə qəbul olunmuşdu ki, bu da ötən illə müqayisədə 5 faiz çoxdur [7].

Gəncə Ali təhsil müəssisələri üçün mükkəməl maddi-texniki baza yaradılmışdır. Onların hər birinin ayrı-ayrılıqda tələbə yataqxanaları vardı. Həmin məktəblərin özləri və tələbə yataqxanaları istilik sistemi ilə təmin edilmişdir. Gəncə Ali məktəblərində ciddi yenidənqurma, təmir işləri aparılmışdır. Ali məktəblərdə müasir laboratoriyalar, kompyuterləşmiş fənn kabinələri, kitabxanalar, idman zalları və s. vardır [16,12].

İstər sovet dönəmində, istərsə də dövlət müstəqilliyinin bərpasından sonra Gəncə respublikanın mühüm elm ocaqlarından biri kimi də şöhrət tapmışdı. Burada Azərbaycan Elmlər Akademiyasının Gəncə Elm Mərkəzi, 4 Elmi-Tədqiqat İnstitutu – Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq, Gəncə Heyvandarlıq və Baytarlıq, Azərbaycan Elmi-Tədqiqat İpəkçilik və Elmi-Tədqiqat Bitkiləri Mühafizə institutları fəaliyyət göstərir [2,144].

Dövlət müstəqilliyinin bərpasından sonra əhaliyə göstərilən mədəni-maarif xidmətinin səviyyəsi daha da yuksəldildi. Mədəniyyət və Turizim İdarəsi tərəfindən bir çox əməli tədbirlər həyata keçirildi. "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubleyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 2011-ci il sərəncamına uyğun olaraq dahi şairin məqbərəsi əsaslı təmir edilmiş, onun adına muzey tikilib istifadəyə verilmişdi. Gəncə Regional Elm Mərkəzində "Nizamişünaslıq" şöbəsinin bazasında Nizami Gəncəvi mərkəzi yaradılmışdır. Dünya kitabxanalarından Nizami Gəncəviyə aid əlyazmalarının surətləri şəhərə gətirilmişdir.

Statistik məlumatlara müraciət etsək görərik ki, əgər 1990-cı ildə şəhərdə 690 000 nüsxə kitab fondu olan 41 kitabxana, 18 klub, 1 filarmoniya və 5

muzey fəaliyyət göstərirdisə [16], 2011-ci ilin məlumatına görə 450 000 kitab fondu olan 28 kitabxana, 12 kitab müəssisəsi, kinoteatr, 3 peşəkar teatr, bir filarmoniya, 7 muzey, 139 mədəniyyət və istirahət parkı, 258 daşınmaz mədəniyyət abidələri qeydə alınmışdır [3,44].

"9 may faşism üzərində Qələbə günü", "1 iyun uşaqların beynəlxalq müdafiəsi günü", "15 iyun Azərbaycan xalqının Milli Qurtuluş günü" və s. tədbirlər demək olar ki, hər il qeyd olunur və bu tədbirlər yerli və mərkəzi kütləvi informasiya vasitələrində işıqlandırılır [18].

Mədəniyyət və Turizim İdarəsi şəhər sakinlərinin və qonaqların asudə vaxtının mənalı keçirilməsi üçün yeni tamaşa və konsert proqramlarının hazırlanması, maddi-mənəvi dəyərlərimizin qorunub saxlanılması, bərpası və dünya miqyasında təbliğ olunması sahələrində böyük rol oynaya biləcək turizm və xalq sənətkarlığının inkişaf etdirilməsi sahəsində xeyli iş görmüşdü [6].

Dövlət səviyyəsində qeyd edilən "20 Yanvar Ümumxalq Hüzün günü", "26 fevral Xocalı Soyqırımı" 31 Mart azərbaycanlıların soyqrımı günü münasibəti ilə hər il idarə və təşkilatlarda silsilə tədbirlər keçirilir [7].

Gəncəlilərin öz doğma şəhərlərinə coşqun sevgisi tarixin bütün dönəmlərində yüksək olmuşdur. 2007-ci ilin sentyabrında şəhərin 2500 illik yubleyinin böyük coşqu ilə keçirilməsi, bu tarixi sevginin əyani təzahürü idi. Təntənələrə respublikanın hər yerindən, o cümlədən bir çox xarici ölkələrdən gələn elm və mədəniyyət nümayəndələri də qoşulmuşlar. Şəhər rəhbərliyi tərəfindən hər ilin sentyabr ayında Gəncədə şəhər gününün qeyd edilməsi qərara alındı ki, bu da şəhərdə mədəni-maarifin yüksəldilməsinə diqqətin təzahürü idi [19].

Azərbaycan Mədəniyyət və Turizm, Gənclər və İdman Nazirliklərinin Gəncə idarələrinin birlikdə müxtəlif illərdə keçirdikləri 420- dən çox tədbir məhz mədəni-maarif sahəsində görülən vacib işlər idi ki, onlar yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə, mənəvi-əxlaqi keyfiyyətlərin yüksəldilməsinə, narkomaniya, alkoqolizimə qarşı kompaniyaların keçirilməsinə yönəldilmişdir [7]. Gəncə respublikanın ədəbiyyat və incəsənət ocaqlarından biridir. Burada Respublika Yazıçılar, Rəssamlar, Bəstəkarlar, Jurnalistlər İttifaqlarının, Teatr Cəmiyyətinin filialları, habelə Alimlər evi fəaliyyət göstərir.

Ölkə rəhbərliyinin uğurlu daxili və xarici siyasətinin təbligi, Gəncə şəhərinin sosial-iqtisadi inkişafının, infrastrukturunun yeniləşməsi istiqamətində həyata keçirilən tədbirlər şəhərdə nəşr edilən mətbu orqanlarında daima, ardıcıl olaraq işıqlandırılmışdır. Onlardan "Gəncənin səsi", "Novosti Qandji" qəzetlərini qeyd edə bilərik. Ümumən şəhərdə "Mərkəzi" və "Kəpəz", "Alternativ", " EL", "Türkel" regional telekanalların, respublikanın və regionun 22 qəzet redaksiyasının, informasiya agentliklərinin və mərkəzlərin fəaliyyət göstərməsi, 86 adda müxtəlif qəzet və jurnalların redaktorları və bölgə müxbirlərinin akkreditasiyadan keçməsi əhalinin, ölkənin, eləcədə Gəncənin sosial-iqtisadi həyatına dair məlumat əldə edilməsinə, informasiya dairəsinin genişlənməsinə böyük imkan yaratmışdır [3].

Beləliklə, təqdim olunan məqalədə mənbə və ədəbiyyatlardan Gəncənin mədəni həyatına aid gətirilən fakt və məlumatlar bir daha göstərir ki, Gəncə öz tarixi-mədəni ənənələrini dövlət müstəqilliyinin bərpasından sonra nəinki davam etdirmiş, eyni zamanda onu daha da zənginləşdirmişdir.

### ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. 7 cilddə, VII c. Bakı: 2008.
2. Qurbanov B.,Qədirova E.,Qaffarov T. Gəncə 1946-1990-cı illər //Gəncə (tarixi oçerk). Bakı: 1994.
3. Gəncənin statistik göstəriciləri (2000-2009). Gəncə Şəhər Statistika İdarəsi. Gəncə: 2010.
4. Gəncə Şəhər Statistika İdarəsi (GŞSİ), qovluq 5, s.12
5. GŞSİ, qovluq 5, s.1-2
6. Gəncə Şəhər İcra Hakimiyyətinin Arxivi (GŞİHA), qovluq 2043, s.14
7. Vəliyev E. Başladığımız iri həcmli layihələr, digər işlər vaxtında ugurla həyata keçiriləcək. “Gəncənin səsi” qəz., 2012, 7 mart
8. Məmmədov A., Musayeva T. Gəncə 1921 iyun- 1941-ci illərdə //Gəncə (tarixi oçerk). Bakı: 1994
9. GŞSİ, qovluq 6, s. 14-15
10. httpp:/www.az. vikipediya.orq.Gəncə şəhər sənayesi.
11. httpp:/www.az. vikipediya.orq. Qafqaz Universitetlər Birliyi
12. http: /www. Azerbaycans.com.
13. http: /www.atu.edu.az
14. http: /www.gdu.edu.az
15. GŞSİ, qovluq 6, s.4-5
16. Gəncə şəhərinin sosial göstəricilərinə dair statistik bülleten. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Gəncə statistika idarəsi. Gəncə: 2014.
17. GŞİHA, qovluq 2982, s.44.
18. GŞİHA, qovluq 2043, s.16.
19. Əliyeva A. İllər uğurla keçir. “Gəncənin səsi” qəz., 2007, 28 sentyabr
20. GŞİHA, qovluq 660, s. 84.


## КУЛЬТУРНАЯ ЖИЗНЬ ГОРОДА ГЯНДЖИ В ПЕРИОД ВОССТАНОВЛЕНИЯ ГОСУДАРСТВЕННОЙ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА (1991-2011)

**Н.А.РАСУЛОВА**

### РЕЗЮМЕ

Город Гянджа с древних времен была одной из культурных центров Азербайджана. Такие гениальные личности человечества как Низами Гянджеви, Мехсети ханум родились, жили и творили в этом городе. Этот древний город, как один из культурных центров Азербайджана после восстановления Государственной независимости, продолжил исторические традиции. Правда в начале 80-х и конце 90-х годов культурная жизнь города, как и все другие сферы претерпели серьезный удар. Только после прихода к власти великого лидера Гейдара Алиева во второй раз в культурной жизни города произошли существенные продвижения. Глава государства Ильхам Алиев успешно продолжает работу, великого лидера в области развития образования, науки и культуры.

**Ключевые слова:** Азербайджан, государственная независимость, город Гянджа, культура, образование, преобразование

**CULTURAL LIFE OF GANJA CITY AFTER REGAINING STATE INDEPENDENCE (1991-2011)**

**N.A.RASULOVA**

**SUMMARY**

Ganja city has historically been one of the cultural centres of Azerbaijan. The outstanding personalities of humanity such as Nizami Ganjavi, Mahsati Ganjavi were born, lived and created in this city. The ancient city, as one of the cultural centres of Azerbaijan, has continued its historical traditions after regaining the state independence. Indeed, the city's cultural life as all other spheres, faced serious problems, due to negative factors at the end of 80s and beginning of 90s. Significant developments were made only when the Great Leader Heydar Aliyev came to power again. The leader of the country Ilham Aliyev has successfully continued the Great Leader's deeds in education, science and culture.

**Key words:** Azerbaijan, state independence, Ganja city, culture, education, reform